# Almaniyada kitabxanaçılıq işi



Almaniya XVII-XVIII əsrlərdə feodal dövlət olub bir-biri ilə daimi düşmən münasibətlərdə olan knyazlıqlardan ibarət idi. Onların arasında böyük təsir gücünə malik Prussiya knyazlığı işğalçılıq siyasəti yürüdürdü. Siyasi cəhətdən parçalanmış, müharibələrdəki məğlubiyyət və qurtarmaq bilməyən çəkişmələr ölkəni iqtisadi və mədəni cəhətdən tənəzzülə uğratmışdı.

Kitabxana işi bərbad hala düşmüşdü. XVI əsrdə yaranmış şəhər kitabxanaları zəifləmiş, universitet kitabxanaları maddi-texniki və kitab təchizatı cəhətdən çox pis vəziyyətdə idi.

***Saray kitabxanaları***

Həmin dövrdə saray kitabxanalarının say artımı təsadüfi xarakterə malik idisə, fondun formalaşdırılması müntəzəm xarakter daşımırdı. Saray kitabxanaları hamı üçün açıq elan olunsa da, həqiqətdə belə deyildi. Qota hersoqunun kitabxanasında olan elanda yazılmışdır: «Əgər kim isə hər hansı bir kitaba yaxından baxmaq istəyirsə kitabxanadan icazə almalıdır və hətta onun oxumasına da icazə istəməlidir.» 1661- ci ildə oxucular üçün açılmış Berlin kral kitabxanasında da vəziyyət ürəkaçan deyildi. Bir müddət kralın sərəncamı ilə kitabxanaçıların məvacibləri də kəsilmişdi.

Almaniyada ancaq tək- tək kitabxanalar nümunəvi müəssisə kimi fəaliyyət göstərirdi. Bunlardan hersoq Volfenbyüttelin saray kitabxanasını göstərmək olar. XVII əsrin sonuncu onilliyində kitabxanaya daha mütəfəkkir, maarifpərvər pedaqoq Vilhelm Leybnis rəhbərlik etmişdir. O, hesab edirdi ki, parçalanmış və feodal üsul-idarəsi hökm sürən Almaniyada xalqın maariflәndirilməsi kimi möhtəşəm işi həll etmək çox çətindir. Ona görə də Leybnis təhsil ocaqlarında kitabxanaların təşkil edilməsinin əhəmiyyətini dəfələrlə məktub vasitəsilə I Pyotra çatdırmışdı. O, hersoqun saray kitabxanasında özünün mütərəqqi baxışlarını praktiki surətdə həyata keçirməyə çalışırdı. Leybnis Almaniyada ilk dəfə olaraq kitabxana fondlarının müntəzəm surətdə komplektləşdirilməsinin vacib olduğunu göstərmişdi. O, deyirdi: «Canlı orqanizmə qida necə lazımdırsa, komplektləşdirmə də kitabxanaya o cür lazımdır.» O, komplektləşdirməni həyata keçirmək üçün daimi maliyyə vəsaitinin ayrılmasına nail oldu. Onun dövründə kitabxana üçün yeni bina tikildi. Kitabxanada oxu zalı fəaliyyətə başladı, fondun tərkibi təkmilləşdirildi və əlifba kataloqu yaradıldı.

Leybnisin Qettinqen universitet kitabxanasında işlədiyi dövr daha da parlaq olmuşdur. O, kitabxanaçının ictimai rolu ideyasını irəli sürməklə cəmiyyətdə kitabxanaçının dəyərli nüfuzunu daha da yüksəltdi.

1787-ci ildə universitetin 50-illiyində kitabxananın fondu 120 min cildə çatdırıldı. Fond düşünülmüş surətdə təşkil edilmiş və sistemli şəkildə komplektləşdirilirdi. Kitabxanada sistemli-format düzülüşü tətbiq edilmiş, böyük incəliklə əlifba və sistemli kataloqlar tərtib edilmişdir. Kitabxana Qettinqen universitetinin çiçəklənməsinə səbəb oldu. Alman filosofları Lessinq ve Göte bu kitabxana ilə fəxr edirdilər.

Lessinq Volfenbyüttel saray kitabxanasında kitabxanaçı işləyirdi. O, kitabxana işi ilə az məşğul olurdu və əsasən kitabxananın fondundan oxucuların sərbəst istifadə etməsinə çalışırdı. Ondan fərqli olaraq Göte kitabxana işinin yaxşılaşdırılması üçün böyük təsir göstərmişdir. 1797- ci ildə o, Veymar hersoqunun sarayında «İncəsənət və elm üzrə müstəqil müəssisələrin Ali idarəçilik» komissarı təyin edildi. Göte XVIII əsrin axırlarında yaradılmış Veymar kitabxanasının hərtərəfli tərəqqisi üçün böyük diqqət yetirmişdir. O, kitabxana əməkdaşlarına tövsiyə edirdi ki, onların əsas məqsədi kitabların kütlə arasında yayılmasına imkan yaratmaqdan ibarətdir. Kitabxananın komplektləşdirilməsində Göte seçmə üsuluna diqqət yetirir, kitab hərracları və yarmarkalarının kataloqları əsasında konkret kitabın alınmasına və ya rədd edilməsinə məsləhətlərini verirdi. O, fondun komplektləşdirilməsini oxucu sifarişləri əsasında qurmağa çalışırdı. Göte kitabxanaya öz əsərlərinin tam külliyyatını və digər müxtəlif kitabları hədiyyə etmişdi. Onun təşəbbüsü ilə 1809- cu ildə kitab muzeyi təşkil edildi. Göte kitabxana fondu üçün inventar kitabının açılmasını da zəruri hesab edirdi. Onun sərəncamı ilə fondun təftişi aparılmış və kitabxanadan istifadəni yaxşılaşdırmaq üçün yeni qaydalar tərtib etmişdi.

Veymar kitabxanası əlyazma və inkunabul (ilk yığma kitablar), şərq kitabları, portretlər və qravürlər üçün ayrıca kataloq tərtib etmişdir. Kitabxanada qiyabi abonement də yaradılmışdır. Şöbə alimlərə, yazıçılara və dövlət xadimlərinə öz şəxsi hesablarına kitablar və əlyazmaların surətlərini göndərirdi. Götenin şəxsi əlaqələri nəticəsində Veymar kitabxanası İen universitet kitabxanası ilə daimi kitabxanalararası abonement təşkil etmişdi.

O, həmçinin «Ali icraedici» vəzifəsini də apardığı üçün kitabxanaya layiqli namizədlərin yerləşdirilməsinə də xüsusi fikir verirdi. Onun rəyinə görə hər bir kitabxanaçı işin bütün proseslərini və kitabxana sis-

teminin bütün sahələrini mükəmməl bilməlidir. Göte kitabxanaya gənc mütəxəssislərin cəlb olunmasına da diqqət yetirirdi. O, Veymar saray kitabxanasının, İysi universitet kitabxanasının və iki şəxsi (alman alimləri Buder və Byüttnerin) kitabxananın toplu kataloqunu tərtib etməyi qarşısına məqsəd qoymuşdu. Lakin, məlum olmayan səbəblər üzündən bu iş yarımçıq qalmışdır.

Bu dövrdə Almaniyada mötəbər kitabxanalardan biri də Drezden şəhər Sakson kurfyüristlər (feodal Almaniyada imperator seçmək hüququna malik olan nüfuzlu knyazlar) kitabxanası idi. Kitabxananın yaradılmasında və fəaliyyət göstərməsində dahi alman kitabxanaçısı İohan Mixail Frankın (1717-1775- ci illər) xidmətləri çox diqqətə layiqdir. 1762-ci ildə onun fondu 42.139 cilddən ibarət idi. 1756- cı ildə Frankın hazırladığı toplu kataloqu nəşr edildi.

Oxucu sorğularını keyfiyyətli ödəmək üçün Frank düzülüş qaydasını yenidən təşkil etmiş və kitabları məzmununa görə yerləşdirmişdir. Bölmələr daxilində kitabların düzülüşündə məzmununun tarixi və coğrafi xarakteristikasını nəzərə almaq məsləhət görülürdü. Kataloqlarda ölkəşünaslıq ədəbiyyatı üçün də bölmələr ayrılmışdı. Bu üsul sonrakı, XIX əsr alman sistemli kataloqlarında xüsusi olaraq geniş yayılmışdı. Frankın mühüm yeniliklərindən biri də, kitablara şifrənin verilməsi idi. Çünki kitab şifrəsi düzülüş və təsvir arasında, inventar və kataloqlar arasında əlaqələndirici halqə rolunu oynayır. Frankın kitabxanaşünaslıq elminin zənginləşdirilməsində çox mühüm xidmətləri olmuşdur. Onun ədəbiyyatı aparıcı bölmələrdə düzmək metodikası XIX əsrin axırları XX əsrin əvvəllərində burjua kitabxanaşünaslarından Ç. Ketterin və M. Dyünin nəzəriyyələrini qabaqlamışdı.

Almaniyada hazırda 15,7 mindən çox kitabxana vardır ki, həmin kitabxanalar müxtəlif təşkilatların, müəssisələrin və hakimiyyət orqanlarının tabeçiliyindədir. Bu kitabxanalarda 373 milyon müxtəlif sənəd növləri toplanmışdır. Hər il oxucuların istifadəsinə 378 milyon nüsxə çap məhsulları verilir. Almaniyanın bütün kitabxana sistemlərində çalışan əməkdaşların sayı 29 min nəfərdir. Hər il kitabxanaların saxlanılmasına 3100 milyon marka pul xərclənir ki, bunun da təxminən 27-28%-i kitabxana fondlarının komplektləşdirilməsinə sərf edilir. Bu da AFR üçün 760 min. marka deməkdir. Beləliklə Almaniyanın hər 10.000 nəfər əhalisinə 24,5 min nüsxə çap məhsulu həcminə malik iki kitabxana düşür. Əhalinin hər bir nəfərinə respublikanın bütün kitabxana fondundan 5,2 nüsxə kitab düşür. Hər bir alman, statistik məlumata görə müxtəlif tip kitabxanalardan orta hesabla 5,4 nüsxə müxtəlif növ çap məhsulları alır. Bu da hər bir nəfərin kitabxana xidmətinə 5,7 marka xərclənməsi deməkdir. Ancaq bununla belə AFR-in müxtəlif regionlarında və konkret kitabxanalarda əhaliyə xidmət sahəsində fərqlər də mövcuddur.

Almaniyada ənənəvi olaraq elmi və kütləvi kitabxana tipləri vardır. Kütləvi kitabxanalardan fərqli olaraq elmi kitabxanalar Almaniyanın informasiya şəbəkəsinin özəyini təşkil edir. Bir qayda olaraq elmi kitabxanaların fəaliyyəti milli maraqlarla və ya konkret müəssisənin informasiya tələbatı ilə sıx bağlıdır. Həmin kitabxanalar sabit maliyyə vəsaiti ilə təmin olduğu üçün ləğv oluna bilməz və ya xidmət etdiyi təşkilatla birlikdə yeni qaydalar çərçivəsində fəaliyyətini davam etdirə bilər. Almaniyada elmi kitabxanalara Milli, dövlət, mərkəzi sahəvi, regional, universitet və ali təhsil müəssisələrinin, həmçinin xüsusi kitabxanalar aiddir. Bu tip bütün kitabxanaların 15%- ni təşkil etməsinə baxmayaraq kitabxana şəbəkəsi arasında nüfuzlu mövqeyə malikdir. Məhz elmi kitabxanaların fondunda Almaniyanın bütün kitabxana fondunun 60%-i toplanmışdır. Onun payına kitabxana işçilərinin 53%- i, maliyyə resurslarının isə 49%- i düşür.

AFR-də 7 Milli, dövlət və mərkəzi sahəvi kitabxana vardır. Onların fəaliyyəti ölkənin bütün ərazisinə aid edilir. Göstərilən kitabxanaların fondu bütün kitabxana fondlarının 87%-nə qədərini təşkil edir. Bu kitabxanalar federal ərazilər tərəfindən maliyyələşdirilir.

***Çap məhsullarının kolleksiyası***

Almaniyada ABŞ-da, Fransada, İngiltərədə olduğu kimi Milli kitabsaxlayıcı və çoxlu ənənəvi funksiyalara malik Milli kitabxana heç vaxt olmamışdır. Ona görə də Almaniyanın siyasi dairələri və hökumət rəhbərləri müasir tələblərə cavab verən kitabxana şəbəkəsinin formalaşdırılmasına xüsusi diqqət yetirməyə başladı.

1998- ci ildə kitabxanaşünas Mixael Olson «Vahid Alman Milli kitabxanası»nın yaradılmasını uydurma adlandırmışdı. Onun müəyyənləşdirdiyinə görə Milli kitabxana ən mühüm dörd funksiyaya malik olmalıdır. Bura aiddir:

- Milli biblioqrafia mərkəzi funksiyası
- Milli çap məhsullarının toplanması funksiyası
- Maksimal həcmdə xarici ədəbiyyatla komplektləşdirilməsi
- Mükəmməl Milli dəyərlərə malik retrospektiv (qədim və köhnə) kitab kolleksiyasının yaradılması

Almaniyanın Leypsiq kitabxanası (1912) mərkəzi Milli biblioqrafiya və müasir nəşrlərin depozitariya funksiyalarını icra edir. Ancaq Fransa və İngiltərədən fərqli olaraq Almaniyada zəngin tarixi kitab kolleksiyası (yəni bir neçə yüzilliklər dövründə toplanmış) yoxdur. Bu onunla izah olunur ki, Almaniya siyasi xəritəyə 1871- ci ildə düşmüşdür.

Alman regionlarının çoxlu kitabxanaları zəngin kitab kolleksiyalarının toplanmasına nail olsa da onların heç biri Almaniya Milli kitabxanası kimi öz təsdiqini tapmamışdır. 1913- cü ildə birinci Milli depozitariya kitabxanası yaradıldıqdan sonra komplektləşdirilmə prosesi və müasir kitab çapının qorunması məsələsi elmi və praktiki cəhətdən tədqiq olunmağa başlandı. 1913- cü ilə qədər olan nəşrlərin üçdən birini Almaniyanın heç bir kitabxanasında tapmaq mümkün olmamışdır. 1986-cı ildə Bernard Fabian «Kitab, kitabxana və ictimai elm sahələrində tədqiqatlar» adı altında nüfuzlu elmi traktat çap etdirdi. Müəllif özünün fundamental icmalında göstərirdi ki, ilkin mənbələrə istinad edilmədən və onları araşdırmadan ictimai elmlər üzrə tədqiqat işlərində yüksək nəticələr əldə etmək mümkün deyildir. Əsl işlərə və ya yazılı mənbələrə söykənmədən hər bir elm sahəsinin tarixini öyrənmək olduqca çətin olacaqdır. Məsələyə diqqətlə yanaşdıqda aydın olur ki, Almaniyada 1913- cü ilə qədər olan çap irsinin bir mərkəzdə toplanması üçün həmin ilə qədər müəyyən kolleksiya fonduna malik kitabxana tərəfdaşların ümumi səyləri nəticəsində mümkündür. Bernard Fabian Almaniyanın inkişafının müxtəlif konkret tarixi dövrlərinə aid olan çap kolleksiyalarına malik beş alman kitabxanasından ibarət konsersium yaradılmasını təklif etdi. O, həmçinin çatışmayan nəşrləri əldə etməkdən ötrü kitabxana- iştirakçılara xüsusi vəsaitin ayrılmasını da təklif edirdi. Kolleksiyalarda müəyyən tarixi dövrlərə aid boşluqları doldurmağa başlamaqla 1450- 1912- ci illərdə nəşr olunmuş əsərləri mütəxəssislərə təqdim edən Alman Milli kitabxanasının kooperativ desentralizasiyasının yaradılmasına arxalanmaq mümkün idi.




Bu cür təkəbbürlü layihənin keçirilməsi üçün müvafiq tarixi dövrlərin çap sənədlərinə malik kitabxanaların dəvət edilməsi məsləhət bilinirdi. Bunlar aşağıdakılar idi:

- 1450-1600-cü illər- Bavariya dövlət kitabxanası (Münxen şəh.)
- 1601-1700-cü illər-Hersoq kitabxanası (Hersoq Avqustun kitabxanası. Volfenbüuttel şəh.)
- 1701-1800-ci illər-regional və universitet kitabxanası (Qettinqen şəh.)
- 1801-1870-ci illər kütləvi və universitet kitabxanası (Frankfurt şəh.)
- 1870-1912-ci illər-Prussiya mədəni irsinin Dövlət kitabxanası (hazırda Dövlət kitabxanası. Berlin şəh.)

1989-cu ildə Folksvaqen kompaniyasının xeyriyyə fondu uzun vaxt üçün planlaşdırılmış bu layihənin beş illik pilot bazasını tədqiq etmək üçün 25 mln marka (12,75 mln. avro) həcmində qrant ayırmışdır. Həmin ildə kitabxana iştirakçıları alman çap məhsullarının komplektləşdirilməsindən ötrü kitabxana assosiyasiyasını yaratdı. 1995-ci ildə yeni konsorsiuma Alman kitabxanası, onun tərkib hissəsi olan Alman kitabının depotizariyası (Leypsiq şəh.), Alman kitabxanası (Frankfurt-na- Mayn şəh.) və Alman musiqi arxivi (Berlin şəh.) daxil oldu. Nəticədə layihəyə 1913-cü ildən indiyə qədər bütün çap məhsullarının toplanması daxil edildi. Bununla tarixdə qıfıllanıb qalmış prossesin yenidən tədqiqatı nəticəsində XV əsrdən başlayaraq Almaniyanın çap irsinin bu günə qədər toplanması, qorunub saxlanması və kataloqlaşdırılması işi fəallaşdırıldı. İlkin vəzifə alman kitabxanalarında olmayan hər bir alman nəşri ilə komplektləşdirməkdən ibarət idi. 1450-1912-ci illər üzrə çap kolleksiyasını tamamlamaqdan ötrü kitabxana - iştirakçılar aşağıdakı prinsipləri tətbiq etdilər: Almaniya ərazisində çap edilmiş nəşrlər və həmin nəşrlərin dil mənsubiyyətindən asılı olmayaraq, göstərilən proqramda Leypsiqdə nəşr olunmuş latın dilində olan dissertasiyalar, alman dilində olan almanaxlar və Filadelfiyanın nəşrlərinin də salınması nəzərdə tutulurdu.

Göstərilən kitab və sənədlərdən əlavə dövrü nəşrlərin, dövlət qərarlarının, bəyannamələrin, kitab tacirlərinin kataloqlarının, uşaq nəşrlərinin, məktəb dərsliklərinin, universitet nəşrlərinin, təsadüfi xarakterli nəşrlərin də komplektləşdirilməsi nəzərdə tutulmuşdu. Bütün nəşrlər fəal surətdə axtarılırdı. Bütün hallarda üstünlük orginal nəşrlərə verilirdi. Qədim nəşrlər olmadığı halda komplektləşdirmə reoprint nəşrlər, surət nəşrləri, mikroformatlar və s. qaydada sudroqatlaşdırılırdı (nəşrləri qismən əvəz etmək).

Kolleksiyanın keçmişə aid hissəsini tamamlamaq üçün kitabxana- iştirakçılara əsas mənbə antikvar kitab bazarının beynəlxalq sistemi sayılırdı. Kitab bazarlarına dünyanın müxtəlif yerlərindən daxil olan cürbəcür nəşrlər diqqətlə araşdırılırdı.

Nəşrlərin müəyyən hissəsi kitab auksionlarından və şəxsi kitab həvəskarlarından daxil olurdu. Bundan əlavə İNTERNET ticarət təkliflərinin öyrənilməsində yeni imkanlar açmış və həmin kitabxanaların alman çap nəşrləri ilə komplektləşdirilməsində mühüm rol oynayırdı.

Keyfiyyətli biblioqrafik qeydlərin aparılması virtual milli kitabxananın mövcudluğunun mühüm şərtlərindən hesab olunur. Alınan bütün nəşrlər bu sahədə qüvvədə olan müasir standartlara uyğun kataloqlaşdırılır. Məsələn, Karleruyedə virtual kataloqu göstərmək olar. Biblioqrafik qeydləri dünyanın hər bir nöqtəsindən internet vasitəsilə çıxarmaq olar.

Çox zaman qədim kitabların qorunub saxlanması üçün xüsusi tədbirlərin görülməsi tələb olunur. Qeyd etmək lazımdır ki, XIX əsrin ortalarına qədər çoxlu sayda kitablar yüksək turşuluğa malik kağızlarda çap olunmuş və ona görə də həmin kitablar müəyyən vaxtdan sonra güclü surətdə ovxalanırlar. Kitabxana- iştirakçılar həmin kitabların bərpa edilməsinə və saxlanmasına da vəsaitin xərclənməsini zəruri hesab edirlər. Qiymətli orginalların mikrofilmləşdirilməsindən geniş istifadə edilir.

Kitabxana Assosiyasiyasının nəticələri məqalənin sonunda - sxemdə verilmişdir.

Assosiyasiyaya daxil olan bütün nəşrlər geniş oxucu kütləsinin ixtiyarına, xidmət işinin ümumi qaydalarına riayət edilməklə veriləcəkdir. Qiymətli qədim nəşrlər nadir kitabların oxu zalında, müasir materiallar isə KAA qaydası ilə veriləcəkdir. Sənədlərin fiziki vəziyyətindən asılı olaraq onların ancaq surətləri və ya mikroformatları da verilə bilər. Praktiki nəticələrin təhlili sübut etdi ki, Milli kolleksiyanın desentralizasiya konsepsiyası özünü doğrultdu.

Assosiasiya iştirakçılarının məsuliyyət bölgüsü komplektləşdirilmə siyasətinin əlaqələndirilməsi və müasir informasiya- kommunikasiya texnologiyalarının tətbiqi sayəsində Almaniyada virtual Milli kitabxananın yaradılması imkanlarını təsdiqlədi.

«Görülən işlərə və qazanılmış nailiyyətlərə baxmayaraq kitabxana- iştirakçıları alman çap nəşrlərinin komplektləşdirilməsində hələ də uzun yol qət etməlidir» deyən Berlin şəhər Dövlət kitabxanasının baş direktoru A. Djemmers göstərir ki, fondların bütövlüyünü təmin etmək üçün yaxın 40- 50 ildə alman yazılı ədəbiyyatın intensiv axtarışını davam etdirmək tələb olunur. Bunun üçün maliyyənin intensiv aparılması və antikvar nəşrlərin bazar qiymətinin sabitliyinə nail olmaq mühüm şərtdir.

**Məmməd Məmmədov,**
**Yaşar Qaralıyev,**
**M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının bölmə müdirləri**